# XX-XXI ƏSRLƏRİN QOVŞAĞINDA MİLLİ MƏTBUATIN ÇƏTİN VƏ ŞƏRƏFLİ MÜBARİZƏSİ

## *Teymur Əhmədovun jurnalistik fəaliyyətinə bir nəzər*

*(Əvvəli ötən sayımızda)*

İnstitutda onun müvəffəqiyyətini gözü götürməyənlər hörümçək toru quraraq Teymur Əhmədovu uzun illər elmi işdən ayrı salırlar. "Nərimanovun elmi-tənqidi mətnini" hazırlamağı ona həvalə edirlər. Teymur Əhmədov buna etiraz edərək bildirir ki, mən mətnşünas deyiləm. Siz mənə qəsd edirsiniz, mən bu işin texnikasını, qayda-qanununu bilmirəm. Və əlavə edir ki, peşəkar yazıçıların – Cəlil Məmmədquluzadənin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin və başqalarının bədii əsərlərinin elmi-tənqidi mətni yoxkən, bu fikri ortaya atmağınız heç bir məntiqə sığmır. Nərimanovun sağkən Bakıda çap olunan kitabları 1925-ci ildən sonra nəm arxivlərdə çürüdüblər. 1926-cı ildən 1956-cı ilədək onun bədii əsərləri Bakıda dərc olunmayıb...

Onun elmi işini mətinşünaslığa yönəltmək gənc alimin elmi fəaliyyətinin inkişafına pəl vurmaq idi. Lakin Teymur Əhmədov insanın bilmədiyi sahədə işləməsinin nə qədər ağır və çətin olduğunu bilsə də imtina edə bilmir. O, yazır: "Mənim qarşımda ciddi vəzifə durudu. N.Nərimanovun öz sağlığında 1894-cü ildə Bakıda nəşr olunan "Nadanlıq" pyesindən 1970-ci ilədək ötən 76 il ərzində çıxan əsərlərini cümlə-cümlə, sözbəsöz tutuşdurub nəzərəçarpan dəyişiklikləri (neçənci ildə bu söz necə dəyişdirilib və nə üçün ixtisar olunub) göstərilməlidir. Elmi-tənqidi mətn hazır olandan sonra bütün bu dəyişikliyin xarakteri, səbəbi və mahiyyəti mətnşünaslıq elmi mövqeyindən təhlil olunmalıdır". Tədqiqatçı alim, üç il böyük zəhmətlərə qatlaşır, nəhayət, Nərimanovun elmi-tənqidi mətnini hazırlayıb başa çatdırır.

Teymur Əhmədov "Mənim həyatım" xatirə əsərində yazır: "Təsəvvür edin ki, qalın ikicildlik əlyazmanı akademiyanın vitse-prezidenti, akademik Arif Dadaşzadənin iş stolunun üstünə qoyanda, üzümə baxdı, dedi: bu nədir? Dedim: "Nərimanovun əsərlərinin elmi-tənqidi mətni". Gətirmişəm ki, çap edəsiniz. Qarşıdan Nəriman Nərimanovun 100 illik yubileyi gəlir. Arif müəllim cildlənmiş qalın əlyazmanı götürdü, yarım saat vərəqlədi. Mən də sakitcə ona baxırdım.

– Bunu sənə hansı axmaq tapşırıb? Heyif... – dedi.

Hiss etdim ki, daxilən əsəbləşib, dinib-danışmadım. Sonra handan-hana sakitcə dedi: Get sözlərin üstündən rəqəmləri çıxart, mətni təmizlə gətir, çap edək.

Mən 3 il üzərində əzabla işləyib düzəltdiyim iki cilddə əlyazmanı gətirib həyətdəki Novruz bayramı münasibətilə yandırılmış tonqala atdım: tüstü və alov şöləsinə baxa-baxa qəhərləndim".

* * *

Xalq yazıçısı akademik Mirzə İbrahimovun təşəbbüsü və Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin göstərişi ilə Elmlər akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsi yarandı. Mirzə İbrahimov burada şöbə müdiri kimi, dəvət etdiyi seçmə elmi işçilərlə Cənubi Azərbaycan Ədəbiyyatının araşdırma Mərkəzinin təməlini qoydu. Teymur Əhmədovu şöbəyə müavin vəzifəsinə dəvət etdi.

Bundan sonra Mirzə İbrahimovun tapşırığı ilə Teymur Əhmədov "Nəriman Nərimanovun yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir və onu uğurla başa çatdıraraq müdafiə edir.

Teymur Əhmədov gənclik illərindən Nəriman Nərimanovu gələcək nəslə tanıtmaq missiyasını bu gün də böyük coşqu ilə davam etdirir. Onun qarşısına qoyduğu məqsədlərində inadkar, iradəli olması, zəhmətlərə qatlaşması hər zaman öz bəhrəsini vermiş, ona böyük uğurlar qazandırmışdır...

Professorun 70 illik mətbuat yaradıcılığından bəhs etdiyimiz bu yazıda onun elmi fəaliyyətindən bir qədər ətraflı bəhs etməyimiz də səbəbsiz deyil. Əslində yaradıcılığın elmi qanadında ərsəyə gətirdiyi ədəbi-tənqidi məqalələr, mülahizə və rəylərini mütəmadi olaraq qəzet və jurnallarda nəşr etdirməsilə də alim mətbuat tariximizə öz töhfəsini vermiş olur. İkinci bir tərəfdən, bu çətin, son dərəcə ağır zəhmət tələb edən işi yüksək səviyyədə başa çatdırması onun mükəmməl, müqtədir bir elm, mətbuat fədaisi olduğunu göstərir.

* * *

1965-ci ildə professor Kamal Talıbzadənin tövsiyəsi ilə T.Əhmədov "Azərbaycan" jurnalı redaksiyasında Tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri vəzifəsində çalışır. Onun jurnalist təcrübəsi, tədqiqatçılıq səriştəsi, materialları araşdırıb təhlil etməsi, onlara münasibətini bildirməsi burada da sərbəst düşüncə və prinsipiallıqla ədəbi zövqlə işləməsinə yol açır.

Həmin vaxtlar "Ədəbiyyat və incəsənət" və digər qəzetlərdə N.Nərimanovun ictimai-siyasi fəaliyyəti, bədii yaradıcılığından bəhs edən məqalələrlə çıxışını davam etdirir. "Azərbaycan"da işlədiyi üç il (1965-1968) onun mətbuat yaradıcılığında özünün bir sıra keyfiyyətləri, başqa bir istiqamətdən püxtələşməsi və yeni təcrübəyə malik olması ilə də xarakterik olmuşdur. T.Əhmədovun mətbuat fəaliyyətində diqqətçəkən cəhətlərdən biri də budur ki, o, müxtəlif yollarla redaksiyaya daxil olan zəif məqalələri, heç bir maraq, ideya kəsb etməyən, yenilikləri olmayan məqalələri yaxına qoymamışdır. Digər tərəfdən, ədəbiyyatımız üçün əhəmiyyət kəsb edən, lakin zəif yazılmış əsərləri isə ciddi işlədikdən sonra onların işıq üzünə çıxmasını özünün vəzifə borcu sanmışdır. Elə bu fikrin davamı kimi, onu da deməyi vacib sanıram ki, mətbuatda çalışdığı bütün vaxtlarda müxtəlif xarakterli, ciddi, əhəmiyyətli əsərlərin qarşısını almağa çalışan redaktorlarla işlədiyi zamanlarda da o, özünün prinsipiallığı, cəsarəti, əqidəli olması ilə fərqlənmiş, eləcə də müəyyən məsələlərdə qarşılaşdığı maneçilikləri, haqsız münasibətləri müdrikcəsinə qarşılamış, vicdanla işləmişdir.

Tədqiqatçı-alim 1968-ci ildə müsabiqə yolu ilə akademiyanın Ədəbiyyat İnstitutunun XIX əsr Azərbaycan ədəbiyyatı tarixi şöbəsində baş elmi işçi vəzifəsinə seçilir.

Teymur Əhmədovun mətbuat yaradıcılığında Azərbaycanın görkəmli sənət adamlarının, şair və yazıçıların, maarifçi ziyalıların keçdiyi həyat yolu, əsərlərinin yaranma tarixi, maarifçilik görüşləri, portret cizgiləri böyük məhəbbətlə, ustalıqla qələmə alınmışdır. Onların sırasında Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlıdan başlamış, sonrakı maarifçi nəslin nümayəndələri – M.F.Axundov, N.Vəzirov, M.Ə.Sabir, A.Şaiqlə, R.Əfəndiyevlə davam edən və çağdaş dövrümüzün elm, ədəbiyyat xadimlərinin mənəvi aləminə işıq salan müəllif bu əsərləri ilə bir növ ədəbi şəxsiyyətlər qalereyası yaratmışdır. T.Əhmədov nadanlığın, dini fanatizmin, savadsızlığın hökm sürdüyü dövrlərdə xalqın yaşadığı ictimai ağrıları ədəbi-bədii-nəzəri düşüncələrində əks etdirən sənətkarları haqlı olaraq öz mühitlərinin içərisində təqdim etmişdir.



Onun "Ədəbi-bədii fikir tariximizdən" (2001) kitabında təqdim etdiyi şəxsiyyətlər dediklərimizin bariz nümunəsidir.

T.Əhmədov mətbuatda milli və bəşəri mahiyyət kəsb edən əsərlərlə çıxış etməklə yanaşı, eyni zamanda mətbuat tariximizi araşdırır. XIX əsrin sonu, XX əsrin əvvəlləri, eləcə də Cümhuriyyət dövrü mətbuatını tədqiq edir. Milli oyanışın ilk qaranquşları olan bu qəzet və dərgilərdə dərc olunmuş materialların ideya və məzmununa nəzər salır, onları təhlilə cəlb edərək məramını açıqlayır. Bu sırada müəllif "Həyat", "İrşad", "Açıq söz", "İnqilab", "Dirilik", "Füyuzat", İstiqlal", "Azərbaycan", "Övraqi nəfisə", "Müsəlmanlıq", "Qurtuluş", "Mədəniyyət", "Gənclər yurdu", "Şeypur" "Zənbur" kimi qəzet və dərgiləri "milli istiqlal ideyalı mətbuatı demokratik respublikanın gərgin, mübarizə dolu, təlatümlü və şərəfli günlərinin aynası" kimi təqdim edir. Milli düşüncənin yaranmasına rəvac verən bu mətbuat orqanlarının fəaliyyətinə böyük dəyər verən T.Əhmədov yazır: "İdeya-məzmun zənginliyi ilə diqqətçəkən Cümhuriyyət dövrü mətbuatı Azərbaycanda milli-ictimai fikrin, azadlıq ideyalarının oyanışında, ümumtürk milli məfkurəsinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edirdi". Burada bir mühüm məqamı da qeyd etməliyik ki, müəllif adlarını çəkdiyimiz mətbuat orqanlarından yalnız ümumi şəkildə bəhs etmir. Bu qəzet və jurnalların xronikasını verir, maarifçilik ideyalarından bəhs edir, eləcə də orada çıxış edən müəlliflərin yazılarının ideya-məzmununu açır, onların ictimai-siyasi, mənəvi, ideoloji mahiyyətini, ictimai əhəmiyyətini xarakterizə edir.

T.Əhmədovun mətbuat yaradıcılığında başlıca mövzulardan biri xalqın tarixi taleyi ilə bağlı olub. Əslində bu mövzu illər, qərinələr boyunca özünün həllini tapmadığından bütün zamanlarda, həm də yeni məzmunda özünü büruzə verib. Baxın, erməni xəyanəti yüz illərdi türk millətini soyqırıma, yurd itkisinə, qaçqınlığa, köçkünlüyə məruz qoymuş, dədə-baba torpaqlarımızın itirilməsinə gətirib çıxarmışdır.

Bu gün də üzdəniraq ermənilərin torpaqlarımızın 20 faizindən çoxunu işğal etməsi həmin çirkin siyasətin davam etdirilməsidir. Bütün bunları arxiv sənədlərindən arayıb-axtaran, eləcə də özünün şahidi olduğu hadisələri qələmə alan müəllif daşnakların insanlığa sığmayan vəhşiliyini, qəddarlığını, qaniçənliyini əməllərinin fonunda ifşa etmişdir. Tədqiqatçı bu mövzuda yazılan əsərlər haqqında da özünün geniş mülahizələrini bildirmişdir.

T.Əhmədov istər elmi fəaliyyətində, istərsə də mətbuat yaradıcılığında eyni həvəs və məsuliyyətlə, həm də inadla çalışmışdır. Xüsusən də mətbuat sahəsində gördüyü işlər bu cəfakeş alimin milli və bəşəri düşüncəyə, gücə, qüdrətə malik olduğunun göstəricisidir. Fikrimizi bir qədər geniş aspektdə ifadə etməkdən ötrü mütləqdir ki, professorun XX yüzillikdə 80-ci illərin sonundan özünü bütünlükdə mətbuata həsr etdiyi dövrə nəzər salaq. Bu dövr tarixi təbəddülatlar içərisində baş verən hadisələrlə zəngindir. Xalqın milli mənsubiyyətini, varlığını qabardan, önə çəkən, bu hadisələrə son dərəcə həssaslıqla yanaşan Teymur Əhmədov həmin dövrdə mətbuat mühitində yeni bir imicdə, qiyafədə göründü. Yəni təkcə müxəlif mövzularda, elmi-ədəbi sahələrdən, xalqın ictimai-sosial, mədəni həyatından yazan jurnalist kimi yox, həm də yeni dövr mətbuatının yaradıcısı, redaktoru kimi, azərbaycançılıq məfkurəsi işığında yeni mətbu ənənələr yaratmaq yolunda çalışdı. Bu necə baş verdi?

Bu suala aydınlıq gətirməkdən ötrü onun özünün müstəqilliyin bərpası ərəfəsində və sonra yaratdığı milli mətbuat tariximizdə xüsusi əhəmiyyətə malik olan qəzet və jurnalların yaranma şəraitinə nəzər salmaq bir zərurət kimi qarşıya çıxır.

Artıq 1980-ci illərin sonunda üzdəniraq qonşularımızın Qərbi Azərbycandakı soydaşlarımızı dədə-baba yurdlarından qovması, qaçqınlığa, didərginliyə məruz qoyması bu vətənpərvər ziyalını düşündürür, onlara kömək etmək üçün yollar arayırdı. Çox keçmir ki, bir mətbuat orqanı açmaq qərarına gəlir. O, ilk olaraq faciənin başvermə səbəblərinə aydınlıq gətirməyi, dərdli insanlara dərdini bölüşməkdən ötrü tribuna verməyi məqsədəuyğun hesab edir. Bu tribuna 1989-cu ildə təsis etdiyi və cəmi 1 nömrəsi çapdan çıxmış "Ata yurdu" qəzeti idi. Azərbaycan SSR KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun hakimiyyəti dövründə "Ata yurdu" 14 min nüsxə ilə qeyri-leqal dərc olundu və Meydan hərəkatı iştirakçıları arasında yayıldı.

1990-cı ildə Azərbaycan Qaçqınlar Cəmiyyətinin təsis qurultayında nəşri nəzərdə tutulan qəzetin yaradılması və baş redaktorluğu yekdilliklə cəmiyyətin idarə heyətinin üzvü Teymur Əhmədova həvalə olunmuşdu. Onun "Vətən səsi" (1990-1991) adı ilə nəşr etdiyi qəzetin 10 aprel 1990-cı il tarixli ilk nömrəsinin birinci səhifəsində "Əziz oxucular" sərlövhəli baş məqalə və "Meydan. Üçrəngli bayraq qaldıran xalq" şəkli verilmişdi*.

*(Davamı 5-ci səhifədə)*

# XX-XXI ƏSRLƏRİN QOVŞAĞINDA MİLLİ MƏTBUATIN ÇƏTİN VƏ ŞƏRƏFLİ MÜBARİZƏSİ

## *Teymur Əhmədovun jurnalistik fəaliyyətinə bir nəzər*

*(Əvvəli 3-cü səhifədə)*

“Vətən səsi”nin ilk nömrəsi 30 min tirajla dərc olunmuş, günortaya qədər satılmışdı. Teymur Əhmədov 25 aprel 1990-cı ildə gecə yarı “Vətən səsi” qəzetinin manşetindən “SSR Nazirlər Sovetinin Qaçqınlar Komitəsinin” sözlərini çıxardı. Səhəri “Vətən səsi”nin ikinci nömrəsi 60 min nüsxə tirajla nəşr olundu. Xalqın “möhtəşəm” hadisə kimi rəğbətlə qarşıladığı “Vətən səsi”nin ilk nömrələri hakim dairələrdə narazılıqla qarşılandı. Baş redaktora ciddi xəbərdarlıq ediləndə o, geri çəkilmədi. İsrarla bildirdi ki, “bu günün qəzeti belə çıxmalıdır!...”

Baş redaktor baş məqaləsində “Vətən səsi” qəzetinin Cənubi Qafqazın təlatümlü, ağrılı-acılı məqamında – Qərbi Azərbaycandan yüz minlərlə ailənin qədim ata-baba yurdundan didərgin salındığı, şovinist rus sovet havadarlarının köməyi ilə erməni quldur dəstələrinin Dağlıq Qarabağa müdaxilə etdiyi bir vaxtda yarandığını bildirir, ədalətsizliyə, xəyanətə, haqsızlığa son qoymaq üçün öz fəaliyyət məramnaməsində xalqı birliyə, əsarətdən birdəfəlik xilas olmağa, azadlıq idealları və istiqlaliyyət uğrunda mübarizəyə çağırırdı.

Vətən səsi”nin mövqeyi bütün qeyrətli Azərbaycan vətəndaşlarının rəğbəti, etimadı ilə qarşılanırdı. Onlar “Vətən səsi”ndən tribuna kimi istifadə edir, xalqı birliyə, istiqlaliyyət uğrunda mübarizəyə çağırırdılar. Dünya şöhrətli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyev də “Vətən səsi”ndə çıxış edirdi. 20 iyun 1990-cı il tarixli nömrəsində Amerika müxbiri ilə müsahibəsində dünyanın super dövlətini Sovetlər Birliyini “yenidənqurma” siyasəti ilə səriştəsiz və xəyanətkar Qorbaçovun dağıtdığını, müttəfiq ölkələr arasında çaxnaşma salmasını, erməni-müsəlman çaxnaşmasına rəvac verməsini kəskin tənqid edirdi.

Cənubi Qafqazın böhranlı ictimai vəziyyətindən istifadə edən ermənilər havadarlarına arxalanaraq Azərbaycanın şah damarı Dağlıq Qarabağı ələ keçirməyə çalışırdılar.

Azərbaycan sovet hakim dairələri Ermənistandan silah gücünə qovulan qaçqın karvanını Qarabağ ərazisinə buraxmadılar. Ə.Vəzirov “İkarus” avtobusları və polis dəstələri göndərib Dağlıq Qarabağın Malıbəyli, Xocalı və s. kəndlərinə sığınan qaçqınları Abşeronda “Zaqulba” sanatoriyasında yerləşdirməsi erməni işğalını asanlaşdırmaq məqsədi güdürdü. “Volski” komitəsinin yaradılması da bu vəziyyətlə təşkil olunmuşdu.

Azərbaycan Respublikasının Ali Sovetinin ilk sessiyasında xalq deputatı Heydər Əliyev ciddi narahatçılıq doğuran bu hadisələr barədə: “Vətən səsi”nin 1991-ci il aprel tarixli nömrəsində çıxış etmişdi. Orada deyilirdi.

“...Bu vaxta qədər Sovet İttifaqı hakimiyyəti tərəfindən xüsusilə şəxsən Qorbaçov və Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən uzun zamandan bəri davam edən erməni işğalının qarşısını almaq üçün heç bir qəti tədbir görülməmişdir. Artıq 3 ildir ki, Dağlıq Qarabağ Muxtar Vilayəti dərd və iztirab kimi asılıb Azərbaycanın boğazından”.

Heydər Əliyev 30 il bundan əvvəl Qarabağ problemi ilə bağlı çıxışında müdrik siyasətçi kimi hadisəyə siyasi qiymət vermiş, onun həlli yollarını da göstərmişdi.

Baş redaktor baş məqaləsində “Vətən səsi”nin Cənubi Qafqazın təlatümlü, ağrılı-acılı məqamında – Qərbi azərbaycandan yüz minlərlə ailənin qədim ata-baba yurdundan didərgin salındığı, şovinist rus sovet havadarlarının köməyi ilə erməni quldur dəstələrinin Dağlıq Qarabağa müdaxilə etdiyi bir vaxtda binəsiblərin iradəsi nəticəsində yarandığını bildirir, ədalətsizliyə, xəyanətə, haqsızlığa son qoymaq üçün öz fəaliyyət məramnaməsində xalqı birliyə, əsarətdən bir mübarizəyə çağırırdı.

“Vətən səsi”nin prinsipiallığı, xalqın arzu-istəyinin, mövqeyinin ifadəçisi kimi tanınması ona inam və şöhrət qazandırmışdı. Qəzet ölkənin taleyini düşünən, ağır böhranlı vəziyyətdən çıxış yolu axtaran vətənpərvər ziyalıların, ictimai-xadimlərin də diqqətini cəlb etmişdi. Bu mənada “Vətən səsi”nin 20 iyun 1990-cı il tarixli nömrəsində Heydər Əliyevin Amerika jurnalisti “Vaşinqton Post” qəzetinin müxbiri David Remniklə müsahibəsinin dərc edilməsi təsadüfi deyildi.

Məlum olduğu kimi, Sovet imperiyasının başçısı M.Qorbaçov sosializmi yeniləşdirmək, böhrandan çıxmaq niyyəti ilə “yenidənqurma” siyasətini həyata keçirməyə çalışırdı. Heydər Əliyev müsahibəsində elmi və iqtisadi təməldən məhrum olan yenidənqurma siyasətini ciddi tənqid edir, uzaqgörənliklə deyirdi: yenidənqurma buxardı, ölkəni fəlakətə sürükləyəcəkdir.

* * *

1991-ci ilin yayında Bakıda komendant saatı tətbiq olunmasına, ictimai həyatdakı gərginliyə baxmayaraq, Bakı şəhərində məskunlaşan Qərbi azərbaycan qaçqın ailələri zorla, inzibati təzyiq tətbiq edilməklə Şamaxı və Gəncə ətrafında boş qalmış erməni kəndlərinə köçürülürdü. “Vətən səsi” qəzetinin əməkdaşları bu aksiyanın dayandırılmasına çalışırdı. Baş redaktor bu “köçürülmə” əməliyyatından xəbər tutan kimi hadisə yerinə jurnalist və fotoqraf göndərir, qəzetdə bu dözülməz zorakılığı ifşa edən məqalələr dərc edirdi.

Ölkə başçısının göstərişi ilə mətbuat katibi Osman Mirzəyev “Vətən səsi” qəzetinin əlehinə “Sovet kəndi” və “Bakı” qəzetlərində tənqidi məqalələr təşkil etdi. Teymur Əhmədov “Vətən səsi” qəzetinin 19 iyun 1991-ci il tarixli nömrəsində “İnsaf da yaxşı şeydir” məqaləsi ilə onlara kəskin cavab verdi. Lakin Teymur Əhmədov Müdafiə Nazirliyinin, hərbi komendant polkovnik Valeri Bünyadovun “siz niyə dövlətin siyasətinə qarşı çıxırsınız” ittihamı ilə üzləşdi. İki saatlıq söhbətdən sonra Teymur Əhmədov komendantı bu aksiyanın dövlət rəsmiləri tərəfindən vəhşilik, qeyri-qanuni olduğuna inandıra bilmişdi.

”Vətən səsi”, “Azərbaycan”, “Aydınlıq” qəzetləri milli oyanış dövrünün qəzetləri olmaqla günün hadisələrini reallıqla əks etdirir, oxucular tərəfindən çoşqu ilə qarşılanırdı. Bu üç qəzet elə bir dövrdə nəşrə başlamışdı ki, erməni quldur dəstələri azərbaycanlılara qarşı cinayətlər törədirdilər. Silah gücünə öz isti yuvalarından qovulmuş, ağrı-acıların içində qovrulan soydaşlarımız bu qəzetləri dumana, borana düşmüş talelərinə nur təki saçılan ümid, həyat yollarında bir mayaq timsalında görürdülər...

“Vətən səsi”nin baş məqaləsində T.Əhmədov hadisələri doğuran səbəblər, xəyanətkar ermənilərin gizli niyyətləri haqqında yazırdı: “Tarixdə misli görünməyən kütləvi terror, sui-qəsd bağışlanılmazdır, erməni-daşnak quldurlarının bu cinayətinə hələ indiyədək siyasi qiymət verilməmişdir. Bu, Azərbaycan xalqının öz taleyi üçün narahatçılığına səbəb olmuşdur. Hər bir Qərbi azərbaycanlı bilməlidir ki, isti ata-baba ocağı, örüşlər, bərəkətli torpaq, doğma yurd, əcdadlarımız müqəddəs məzarı kimsəsiz qala bilməz...” Müəllif bu fikirlərdən sonra bir qədər keçmişə nəzər salır, Azərbaycan xalqının mərdliyini, əyilməzliyini önə çəkir: Bunu bizdən vətəndaşlıq borcumuz, qeyrətimiz, şərəfimiz olan əcdadlarımızın ruhu, doğma ocağımızın həsrəti, əzizlərimizin kimsəsiz qalan məzarı tələb edir, – deyərək soydaşlarımızda mübarizlik ruhunu alovlandırır.




Milli oyanış dövrü mətbuatın yaradıcısı Teymur Əhmədov “Vətən səsi”ndə (1990-1991) yurdlarından didərgin düşmüş soydaşlarımızın səsini, sədasını ictimai mühitdə ucadan səsləndirir. Baş redaktor yazır: “Vətən səsi”nin simasını Azərbaycanın taleyi müəyyən edir. “Vətən səsi” bütöv Azərbaycanın, milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşının səsi-sözü və havadarı olacaqdır. O, əməli fəaliyyətində milli demokratik mətbuatın mütərəqqi ənənələrinə, həmyaşıdlarının cəsarətinə arxalanmaqla yanaşı, sələflərinə layaqətli varis olmağa çalışacaqdır”. Olur da! Bu qəzet dədə-baba torpaqlarından son nümayəndəsinə qədər qovulan həmvətənlərimizin dərdlərinə, acı fəryadına ürəyini söykədi, ümid yerinə çevrildi. “ata yurdu”ndan başlanğıcını götürmüş “Vətən səsi” milli oyanış dövrü mətbuatının ilk qaranquşu kimi ictimai-siyasi mühitin ab-havasına özünün güclü təsirini göstərən, xalqın azadlıq, müstəqillik arzularını coşduran bir mətbuat orqanı oldu.

Qəzetin 1-ci səhifəsində (6 iyun 1991) “Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibova açıq məktub”-da bir qrup ziyalıların imzası ilə ölkədə vəziyyətin barometri olan qaçqınların acınacaqlı vəziyyətini bütün incəliklərinə qədər göstərir. Didərginlərin acınacaqlı taleyinə dövlətin biganəliyi tənqid olunur. Onların həyat problemləri bir çox istiqmətdən şərh edilir. Qaçqınların evlərinin dəyişdirilməsi haqqında müvafiq orqanların qərarları, etibarnamələri olsa da, onların küçələrə tökülməsi bildirilir. Belə bir vəziyyətdə qaçqınların Dağlıq rayonlarda, təsərrüfatla məşğul olmağa imkan verən bölgələrdə yerləşdirilməsi təklifləri irəli sürülür. Mövzu ilə bağlı demək olar ki, bütün məsələlər, tövsiyələr nəzərə çatdırılır. Müraciətin aşağısında yumruğunu qəzəblə yuxarı qaldırmış qaçqınların şəkli verilmişdir.

Teymur Əhmədov öz məqaləsində göstərir ki, qaçqınlara zor tətbiq edilərək, onları heç bir hazırlıqsız, güvənsiz aran rayonlarına göndərirlər. Bu isə, elə bir incə məsələdir ki, böyük ağrılar, dərdlər içərisində olan soydaşlarımızı zorakılıqla yox, qanuni şəkildə, həm də öz iqlimlərinə uyğun bölgələrdə qayğıkeşliklə yerləşdirmək gərəkdir. O, bütün bu özbaşınalıqlara, qanunlara riayət olunmadan doğma yurdlarını itirmiş ürəkləri küskün soydaşlarımızın halını, vəziyyətini açıb-göstərir, dövlət məmurlarını ciddi tənqid edirdi. Bütün bunlara görə Baş redaktor Daxili İşlər Nazirliyinə, Mərkəzi Komitəyə, Nazirlər Kabinetinə çağrılır. Ona təzyiqlər olunurdu. Lakin o, həqiqəti dediyi üçün heç kimdən və heç nədən çəkinmədən qəzetin ideya və istiqamətini özünün aydın düşüncəsi və böyük fədakarlığı ilə davam etdirirdi.

“Vətən səsi” hər sayında əzabkeş soydaşlarının dərdlərinə yanır, onların ölkənin bölgələrində yerləşdirilməsi məsələlərini qaçqınların problemləri statusunda müzakirə müstəvisinə çıxarırdı. Böyük cəsarətlə ölkə rəhbərliyinin diqqətini qaçqınların müqəddəratının həlli məsələlərinə yönəldirdi. Vətənindən didərgin düşmüş minlərlə soydaşımızın səsinin daha da ucadan eşidilməsinə şərait yaradırdı. Bu yolda Baş redaktorun başı ağrılar çəksə də, həyatını təhlükəyə atsa da, millətin haqqını, hüququnu boğan qaragüruhçuların təqibləri, hədələri ilə qarşılaşsa belə, vətən, millət sevdalısı əqidəsindən dönməmiş, öz mübarizəsinə davam etmişdir.

“Vətən səsi” özünün fəaliyyəti dövründə hansı mövzuları müzakirə müstəvisinə gətirib? Bütün bunlara Teymur Əhmədovun öz fikirləri ilə aydınlıq gətirməyi məqsədə müvafiq sanırıq. Tədqiqatçı yazır: “Vətən səsi” qəzetinin 1990-1991-ci il nömrələrini ötəri vərəqləyən hər kəs görə bilər ki, burada əsas istiqamətlər: Oğuz yurdu – indiki Ermənistandan azərbaycanlıların ata-baba yurdundan vəhşicəsinə qovulması prosesi; Azərbaycanda qaçqınlar problemi: qaçqınların məskunlaşması və onlara qayğı: Azərbaycanda Demokratik cümhuriyyətin yaranması, süqutu və onun bərpası; Dağlıq Qarabağın narahat günləri; erməni xəyanətinin ifşası; erməni lobbisinə arxalanan daşnak quldurlarının təcavüzkarlığı və törətdiyi cinyətlər; genosid qurbanları; Bakıda 20 yanvar faciəsi və s. olmuşdur”.

*(Davamı var)*

**Şəfəq NASİR**